İlyas HÜSEYNOV *

# AZƏRBAYCAN-YUNANISTAN PARLAMENTLƏRARASI ƏMƏKDAŞLIĞI

**Açar sözlər:** parlamentlərarası münasibətlər, Yunanıstan, parlament, parlamentlərarası əlaqələr üzrə işçi qrupu, Milli Məclis, parlamentlərarası dostluq qrupu, qanunvericilik hakimiyyəti, beynəlxalq münasibətlər

**Keywords:** inter-parliamentary relations, Greece, parliament, working group on inter-parliamentary relations, Milli Majlis, inter-parliamentary friendship group, legislative power, international relations

**Ключевые слова:** межпарламентские отношения, Греция, парламент, рабочая группа по межпарламентским связям, Милли Меджлис, межпарламентская группа дружбы, законодательная власть, международные отношения

Yunanıstan, məlum olduğu kimi, Qərb sivilizasiyasının, tarix və fəlsəfənin beşiyi kimi tanınır. Demokratiyanın vətəni Qədim Yunanıstan hesab olunur. Yunan dilində "demos" xalq, "kratos" isə hakimiyyət deməkdir. Müasir Yunanıstanda demokratik siyasi ənənələrə sadiq qalaraq, antik dövrdən qalan bu mirası davam etdirməyə çalışırlar.

1975-ci il 11 iyun tarixində qüvvəyə minmiş Konstitusiyaya görə Yunanıstan parlamentli respublikadır. Ölkənin rəhbəri isə Prezidentdir. Yunanıstanın qanunverici orqanı bir palatadan ibarətdir, ən yüksək demokratik institut hesab olunur, üzvləri 4 il müddətinə seçilir və 300 deputatdan ibarətdir. Seçkilər proporsional seçki sisteminə uyğun olaraq ümumi, birbaşa və gizli səsvermə yolu ilə həyata keçirilir. Yunanıstanda siyasi partiyaların böyük əhəmiyyəti vardır. Ölkənin siyasi həyatını əsasən iki partiya müəyyən edir: "Yeni demokratiya" və Ümumyunanıstan Sosialist Hərəkatı [25, səh.60-62].

Bu məqalədə Azərbaycan-Yunanıstan parlamentlərarası əməkdaşlığının inkişaf dinamikasına və mövcud vəziyyətinə nəzər salmağa çalışacağıq. Müasir dövrdə Azərbaycanla Yunanıstan arasında parlamentlərarası

* Hüseynov İlyas – Bakı Slavyan Universiteti Beynəlxalq münasibətlər kafedrasının doktorantı.
E-mail: ilyasdiplomat@gmail.com



13



münasibətlər uğurla inkişaf edir. Hər iki ölkənin parlamentariləri bir sıra beynəlxalq təşkilatların parlament iclaslarında birgə iştirak edir. Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan-Yunanıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupu, Yunanıstanın qanunverici orqanında isə Yunanıstan-Azərbaycan parlamentlərarası dostluq qrupu fəaliyyət göstərir və mütəmadi olaraq qarşılıqlı səfərlər təşkil olunur.

1997-ci il iyunun 16-da Azərbaycan Respublikası Milli Məclisinin sədri Murtuz Ələsgərovun başçılıq etdiyi nümayəndə heyəti Qara dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisinin (QİƏPM) 9-cu Baş Assambleyasında iştirak etmək məqsədilə Yunanıstanın paytaxtı Afina şəhərinə yola düşmüşdür. QİƏPM-in prezidenti Apostolos Kaklamanisin xüsusi dəvətini alan Milli Məclisinin sədri Murtuz Ələsgərov burada Yunanıstan Respublikasının Prezidenti Konstantinos Stefanopulosla, QİƏPM-də Yunanıstan nümayəndə heyətinin başçısı xanım Mariya Arsenislə, Yunanıstan parlamentinin sədri A.Kaklamanislə vacib görüşlər keçirmiş, ikitərəfli əlaqələrə, regional məsələlərə dair fikir mübadiləsi aparmışdır [24, səh.2].

Azərbaycan-Yunanıstan parlamentlərarası münasibətlərinin inkişafına təsir edən amillər sırasında dövlət başçılarının qarşılıqlı səfərlərinin böyük önəm daşıdığını qeyd etmək lazımdır. 2004-cü il iyunun 21-də Milli Məclisin sədri Murtuz Ələsgərov ölkəmizdə rəsmi səfərdə olan Yunanıstan Prezidenti Konstantinos Stefanopulosu və onun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Görüş zamanı Azərbaycanla Yunanıstan arasında münasibətlər müzakirə edilmiş, parlamentlərarası əlaqələri daha da genişləndirmək üçün lazımi tədbirlərin görülməsi qeyd olunmuşdur [7, səh.4].

Yunanıstanın Azərbaycan Respublikasında fəaliyyət göstərən səfirliyi də parlamentlərarası əməkdaşlığın daha da dərinləşməsi üçün səylər göstərir. 2006-cı il yanvarın 16-da Milli Məclisin sədri Oqtay Əsədov Yunanıstanın ölkəmizdəki səfiri Temistokles Dimidisi qəbul etmişdir. Parlamentin spikeri ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdiyini bildirmişdir: "Ölkə başçılarının ölkələrimizə qarşılıqlı səfərləri bu əlaqələrin genişləndirilməsinə öz müsbət təsirini göstərir. 2004-cü ildə Yunanıstan Prezidenti Konstantinos Stefanopulosun Azərbaycana rəsmi səfəri zamanı dövlətimizin başçısı cənab İlham Əliyevlə səmərəli görüş keçirmiş və mühüm sənədlər imzalanmışdır. Həmin səfər çərçivəsində

Yunanıstanın yüzə yaxın iş adamı ilə görüş keçirərək əməkdaşlıq əlaqələri barədə geniş fikir mübadiləsi aparmışlar" – deyən parlamentin sədri əlavə edib ki, Azərbaycan Prezidenti İlham Əliyev Yunanıstan Prezidentinin dəvəti ilə Afinada keçirilən yay Olimpiya oyunlarının açılış mərasimində iştirak etmişdir [11, səh.1].

Yunanıstan parlamenti insanlar arasında daha güclü əməkdaşlıq etmək naminə "körpülər" qurmaq, insanların yaxınlaşmasını, onların fikir mübadiləsini təşviq etmək, dostluq münasibətləri yaratmaq və Yunanıstanın xaricdəki imicini təbliğ etmək üçün parlament diplomatiyasına böyük önəm verir [14]. Yunanıstanın NATO Parlament Assambleyasında, ATƏT-in Parlamentin Assambleyasında, Beynəlxalq Parlamentlərarası İttifaqda (BPİ), Avropa Şurası Parlament Assambleyasında (AŞPA), Pravoslav Parlamentlərarası Assambleyada nümayəndə heyəti var [16].

Azərbaycan Respublikası Milli Məclisinin 5 dekabr 2000-ci il tarixli, 24-IIQR nömrəli qərarı ilə Azərbaycan-Yunanıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupu yaradılmışdır [6]. 2015-ci il 1 noyabr tarixində keçirilmiş parlament seçkilərindən sonra Milli Məclisdə Azərbaycan-Yunanıstan Parlamentlərarası Dostluq Qrupunun yeni tərkibi təsdiq olunmuşdur. Azərbaycanın və Yunanıstanın parlamentində fəaliyyət göstərən parlamentlərarası əlaqələr üzrə işçi qrupları ikitərəfli münasibətlərin möhkəmləndirilməsində xüsusi rol oynayır. Qrupun məqsədi Yunanıstan Respublikası Parlamentinin və Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının daha yaxından tanışlığı, dövlətlər arasında əlaqələrin möhkəmləndirilməsinə səbəb olan parlamentlərarası dialoqların, görüşlərin, danışıqların və mümkün müzakirələrin keçirilməsidir. İşçi qrupları vasitəsilə Milli Məclisin üzvləri Azərbaycanla bağlı məsələləri, həqiqətləri Yunanıstanın parlamentindəki deputatlara çatdırırlar.

Azərbaycan Respublikası Milli Məclisinin 4 mart 2016-cı il tarixli, 161-VQR nömrəli qərarı ilə Azərbaycan-Yunanıstan parlamentlərarsı əlaqələr üzrə işçi qrupuna I-V çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli rəhbərlik edir [5]. Azərbaycan-Yunanıstan parlamentlərarsı əlaqələr üzrə işçi qrupu Azər Badamov, Bəxtiyar Əliyev, Sevinc Fətəliyeva, Sevinc Hüseynova, Çingiz Qənizadə, İqbal Məmmədov, Hüseynbala Mirələmovdan ibarət tərkibdə fəaliyyət göstərir [10].





2007-ci il yanvarın 24-də Milli Məclisin sədri Oqtay Əsədov Yunanıstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Harakopulos Maksimosun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Görüş zamanı Milli Məclisin spikeri bildirib ki, Azərbaycan müstəqilliyini qazandıqdan sonra Yunanıstanla əlaqələr ikitərəfli şəkildə inkişaf etməyə başlayıb. Əlaqələrin inkişafında parlamentlər də mühüm rol oynayır. Hər iki ölkənin parlamentariləri nüfuzlu beynəlxalq təşkilatların parlament assambleyalarında yaxından iştirak edirlər. "Azərbaycanın xarici siyasətində əsas istiqamətlərdən biri Avroatlantik məkana inteqrasiyadır. Hazırda Azərbaycan NATO-nun və Avropa İttifaqının müxtəlif proqramlarında yaxından iştirak edir. 2006-cı ilin noyabr ayında Prezident İlham Əliyevin Brüsselə səfəri zamanı Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlıqla bağlı memorandum imzalanıb. NATO-nun və Avropa İttifaqının üzvü olan Yunanıstan Avratlantik strukturlara inteqrasiya edən Azərbaycana mühüm töhfələr verə bilər" [13, səh. 3]. Harakopoulos Maksimos isə öz növbəsində Azərbaycanla Yunanıstan arasında bütün sahələrdə əlaqələrin yüksələn xətlə inkişaf etdiyini bildirib. Qonaq hər iki ölkənin qanunvericilik orqanlarında fəaliyyət göstərən dostluq qrupları arasında əlaqələrin intensivləşməsinin tərəfdarı olduğunu vurğulayıb. Onun sözlərinə görə, qarşılıqlı səfərlər ikitərəfli əlaqələrin inkişafında təkan verəcək [13, səh. 3]. Yunanıstan parlamentinin nümayəndə heyətinin rəhbəri Harakopulos Maksimosun qeyd edib ki, Azərbaycana səfər etməkdən məmnundurlar və belə görüşlərin iki ölkə arasında əlaqələrin inkişafına müsbət təsir edəcəyinə inanırlar. "Biz bu bölgədə sülhün olmasını istəyirik. Yunanıstan Azərbaycanın Avropaya inteqrasiyasında körpü rolunu oynaya bilər" [23].

Yunanıstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvlərinin ölkəmizə səfərinin əhəmiyyətini şərh edən Azərbaycan-Yunanıstan parlamentlərarsı əlaqələr üzrə işçi qrupun rəhbəri, millət vəkili Hadi Rəcəbli Azərbaycan Milli Məclisinin ölkə həyatında oynadığı rolu, iş mexanizmi, strukturu, səlahiyyətləri, o cümlədən qarşıda duran əsas vəzifələri haqqında qonaqlara məlumat verdiyini qeyd edib. "Ölkəmizin müstəqilliyini ilk tanıyan dövlətlərdən biri Yunanıstandır. 1992-ci ilin aprelin 2-də iki ölkə arasında diplomatik əlaqələr yaranıb. Bu müddətdən keçən dövr ərzində 2 ölkə arasında siyasi və iqtisadi əməkdaşlıq yüksələn

xətlə inkişaf edib. Azərbaycan Yunanıstanla parlamentlərarası əlaqələri genişləndirməkdə maraqlıdır. Biz istəyirik ki, bütün ölkələrin qanunyaradıcılığı prosesini öyrənək və müsbət elementləri öz işimizdə tətbiq edək" [23].

2007-ci il 23-26 yanvar tarixlərində Harakopulos Maksimosun rəhbərlik etdiyi Yunanıstan-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupun üzvlərinin Azərbaycana səfəri zamanı Mədəniyyət və Turizm nazirinin müavini Teymur Mehdiyevlə, Azərbaycan-Yunanıstan dostluq qrupunun üzvləri ilə görüşüblər, "Atəşgah"la tanış olublar. Heydər Əliyev Fonduna, B.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutuna və Sanqaçal Neft Terminalına baş çəkiblər. Qrupun tərkibinə Konstantinos Tsiaras, Dimaras İoannis, Ahmet İlham, Antonis Karpouzas və Vrettou Christina daxil olmuşlar [29].

2007-ci il 26-30 iyun tarixlərində Milli Məclisin Azərbaycan-Yunanıstan parlamentlərarası dostluq qrupunun rəhbəri Hadi Rəcəbli, qrupun üzvlərindən Nizami İsgəndərov və Məjlum Şükürov Afinaya səfər ediblər. Yunanıstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun dəvəti ilə həyata keçirilən səfər çərçivəsində deputatlarımız Yunanıstan qanunverici orqanında bir sıra görüşlər keçirmiş, qanun yaradıcılığı sahəsində yunan həmkarlarının iş təcrübəsi ilə tanış olmuşlar. Səfər zamanı Yunanıstanın səhiyyə, nəqliyyat və kommunikasiya nazirliklərində görüşlər keçirilmişdir [9].

Yunanıstan-Azərbaycan parlamentlərarası dostluq qrupu 2004-cü ilin may ayında yaradılmışdır [28]. Yunanıstan Respublikası Parlamentinin saytında qeyd olunur ki, parlamentlərarası dostluq qrupları deputatların yazılı qaydada müraciəti əsasında parlamentin sədrinin qərarı ilə yaradılır və tərkibi deputatlardan ibarət olur. Parlamentlərarası dostluq qruplarının fəaliyyəti qlobal və ikitərəfli səviyyədə parlament diplomatiyasının möhkəmlənməsinə, eyni zamanda milli və beynəlxalq əhəmiyyətli məsələlərdə Yunanıstanın maraqlarının təbliğatına yönəlib. Parlamentlərarası dostluq qrupları bütün parlamentlər tərəfindən tətbiq olunan, Beynəlxalq Parlament İttifaqının nizamnaməsinə əsaslanan və müxtəlif parlamentlər arasında daha sıx əlaqələr qurmağı hədəfləyən beynəlxalq təsisatdır. Yunanıstan parlamentində olan 78 dostluq qrupu Avropa, Şimali və Cənubi Amerika, Asiya, Afrika, Avstraliya-Okeaniyada yerləşən ölkələrlə ikitərəfli təmaslar və parlamentlərarası əlaqələr qurur. Dostluq qruplarının təmasları və görüşləri digər dövlətlərin parlamentləri ilə əməkdaşlığın möhkəmləndirilməsinə, həmçinin qlobal əhəmiyyətli mövzularda Yunanıstanın mövqeyinin irəli çəkilməsinə yönəlib. Onlar eyni zamanda milli maraqları özündə əks etdirən məsələləri önə çəkir və daha güclü beynəlxalq tərəfdaşlığa təşviq edirlər [15].





2015-ci il 20 sentyabr tarixində Yunanıstanda keçirilmiş növbədənkənar parlament seçkilərindən sonra Yunanıstan Parlamentinin nəzdində yaradılan Yunanıstan-Azərbaycan dostluq qrupuna Yunanıstanın sabiq mədəniyyət naziri Konstantinos Tzavaras rəhbərlik edir. Qrupun sədr müavi Livaniu Zoi, katibi isə Mustafa Mustafadır. Qrupun tərkibinə Kara Yusuf Ayxan, Balauras Gerasimos, Antoniu Maria, Arampatzi Foteini, Avgenakis Elefserios, Georgiadis Spiridon – Adonis, Dimas Xristos, Katsaniotis Andreas, Kefalogianni Olga, Kiriazidis Dimitrios, Stilios Georgios, Tsiaras Konstantinos, Xarakopulos Maksimos, Arvanitidis Georgios, Konstantopulos Dimitrios, Loverdos Andreas, Lamprulis Georgios, Fotilas İason, Magalomistakas Anastasios, Likudis Spiridon, Psarianos Griqorios daxildir [22]. Yunanıstan-Azərbaycan dostluq qrupunun katibi Mustafa Mustafa və üzvü Kara Yusuf Ayxan türk əsillidirlər. Maraqlı faktlardan biri də odur ki, qrupun 24 nəfər üzvündən 12-si hazırda hakimiyyətdə olmayan "Yeni Demokratiya" partiyasını bilavasitə təmsil edir. 2015-ci il 1 noyabr tarixində keçirilmiş Milli Məclisə seçkilərdə bu partiyanın 2 üzvü Azərbaycanda olan Parlament seçkilərini müşahidə etmiş, çox yüksək təəssüratlarla ölkələrinə dönmüşlər. Yunanıstan-Azərbaycan dostluq qrupunun tərkibində 2-ci daha çox təmsil olunan iqtidar partiyası "SİRİZA"nın üzvləridir və onların sayı 4-ə bərabərdir.

Azərbaycan-Yunanıstan parlamentlərarası əməkdaşlığında 1992-ci il 4 iyun tarixində təsis edilən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) da əhəmiyyətli rolu vardır. 1993-cü ildə təşkilatın əhatə etdiyi regionda siyasi stabilliyin möhkəmləndirilməsi məqsədilə üzv ölkələrin milli parlamentlərinin təmsil olunduğu QDİƏT-in Parlament Assambleyası yaradılmışdır. Assambleya 70 üzvdən ibarətdir və hər ölkədən gələn nümayəndə heyətinin sayı ölkənin əhalisinin sayına proporsionaldır.

2008-ci il 9-11 iyun tarixlərində QDİƏT Parlament Assambleyası çərçivəsində keçirilən tədbirlərində iştirak etmək məqsədilə Milli Məclisin

sədri Oqtay Əsədovun başçılıq etdiyi nümayəndə heyəti Afinada işgüzar səfərdə olmuşdur. Tədbirdə bölgəmizin dünya siyasətində və iqtisadiyyatında artan rolu Qara dəniz ailəsinin bütün üzvləri arasında sıx əməkdaşlığın vacibliyini ön sıraya çıxardığını qeyd edən Milli Məclisin sədri təşkilatla Avropa Parlamenti arasında sürətli inkişaf edən münasibətlərdən, parlamentlərarası əməkdaşlıq sahəsində əldə olunan müsbət təcrübədən və bu münasibətlərin davam etdirilməsinin vacibliyindən danışmışdır. Tədbir çərçivəsində Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyas ilə Parlament sədrlərinin görüşü keçirilmişdir [20].

Azərbaycan-Yunanıstan parlamentlərarası münasibətlərinin inkişaf etdirilməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Yunanıstana səfərlərinin xüsusi rolu olmuşdur. 2009-cu il fevralın 17-də Azərbaycan Prezidenti İlham Əliyev Yunanıstan parlamentinin – Deputatlar Palatasının sədri Dimitris Suifas ilə görüşmüşdür. Azərbaycan ilə Yunanıstan arasında münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olunan görüşdə parlamentlərarası əlaqələrin əhəmiyyəti vurğulanmış və bu sahədəki əməkdaşlığın qarşılıqlı münasibətlərə töhfə verdiyi bildirilmişdir [3, səh.1].

Dimitris Siufas dövlətimizin başçısına müraciətlə demişdir: "Həyata keçirdiyiniz dövlət səfəri Yunanıstanla Azərbaycan arasındakı münasibətləri daha da möhkəmləndirəcəkdir. Yunanıstan Prezidenti, Baş nazirlə, müxalifət partiyasının sədri ilə keçirdiyiniz və keçirəcəyiniz görüşlər Azərbaycanla Yunanıstan arasında nəinki enerji sahəsində, həm də tədqiqatlar, texnologiyalar, sərmayələr, ticarət sahələrində münasibətlərin yeni mərhələsini açır. Fürsətdən istifadə edərək, icazə verin, Yunanıstan parlamenti sədrinin müavininin və Yunanıstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədrinin iştirakı ilə keçirilən bu görüşdə ölkəmizə dövlət səfəriniz münasibətilə sizə Yunanıstan parlamentinin qızıl medalını – "Şərəf" medalını təqdim edim. Medalın üzərində yunan demokratiyasının banisi Peristoklun portreti əks olunmuşdur. Digər bir rəmzi hədiyyəmiz də var. Bu, eramızdan əvvəl VI əsrə aid piyalənin dəqiq surətidir. Onun üzərində həyatın mənbəyi sayılan Günəş təsvir olunmuşdur" [27, səh.1]. Afinada Yunanıstan parlamentində çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev bildirmişdir: "Əminəm ki, bundan sonra da Yunanıstan-Azərbaycan ikitərəfli münasibətləri uğurla inkişaf edəcəkdir. Qısa müddət ərzində





biz artıq konkret layihələr üzərində çalışırıq və əminəm ki, bu səfər çərçivəsində aparılan danışıqlar Yunanıstanla Azərbaycan arasında qaz sahəsindəki əməkdaşlığın dərinləşməsi üçün çox mühüm addım olacaqdır. Yunanıstan Avropa İttifaqının birinci ölkəsidir ki, bu ölkəyə Azərbaycan qazı daxil olubdur. Hələ ki, məhdud həcmdədir, ancaq mən ümid edirəm ki, yaxın zamanlarda həcm baxımından daha da böyük müqavilə imzalana bilər. Hesab edirəm, bu, Yunanıstanın, eyni zamanda, Azərbaycanın və Avropanın marağındadır ki, bizim ölkələrimiz arasında ikitərəfli əsasda enerji sahəsində müqavilə tezliklə imzalansın. Bu sahədə əməkdaşlıq, əlbəttə ki, öz müsbət təsirini bütün digər sahələrə də göstərəcəkdir" [27, səh.1].

Yunanıstanda demokratik ənənələrə sadiqlik nümayiş etdirmək və siyasi paritetin qorunması məqsədilə ölkədə səfərdə olan dövlət və hökumət başçılarının müxalifətdə olan partiya rəhbəri ilə görüşü təşkil olunur. 2009-cu il fevralın 16-da Azərbaycan Prezidenti İlham Əliyev Yunanıstana dövlət səfəri çərçivəsində onun üçün ayrılmış iqamətgahda – "Grande Bretagne" mehmanxanasında Yunanıstan parlamentində əsas müxalifət partiyası olan Ümumyunanıstan Sosialist Hərəkatının sədri Georgios Papandreu ilə də görüşmüşdür. Görüşdə Azərbaycan-Yunanıstan münasibətlərinin hazırki vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır [2, səh.2].

2009-cu il mayın 7-də ölkəmizdə səfərdə olan Yunanıstan-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri ilə görüşən Milli Məclisin sədri Oqtay Əsədov bildirmişdir: "Azərbaycanla Yunanıstan arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə münasibətlər uğurla inkişaf edir. Bu ölkələr arasında əlaqələrin yüksək səviyyəyə çatmasında qarşılıqlı səfərlərin əhəmiyyəti böyükdür" [26, səh.2]. Azərbaycan-Yunanıstan münasibətlərinə toxunan Hadi Rəcəbli ölkələr arasında əlaqələrin inkişafında dövlət başçılarının rolunu xüsusi qeyd etmiş, aparılmış danışıqların, imzalanmış sənədlərin iki ölkə arasında münasibətlərin dərinləşməsi və əlaqələrin daha da genişlənməsi üçün yaxşı imkanlar açdığını və hüquqi baza yaratdığını vurğulamışdır. "Parlamentarilərimiz bundan səmərəli istifadə etməli, Azərbaycan və yunan xalqları arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi üçün fəaliyyətini daha da genişləndirməlidirlər" [18, səh.2]. Yunanıstan-Azərbaycan əlaqələrinin hərtərəfli inkişafında maraqlı olduğunu bildirən K.Tsiaras ölkə-

mizin dinamik inkişafını yüksək qiymətləndirərək bildirmişdir: "Azərbaycanın çox yaxşı gələcəyi vardır. Biz, Avropa İttifaqının ən qocaman üzvü kimi əminik ki, Azərbaycan yaxın gələcəkdə daha da inkişaf edəcək və dünya üçün çox önəmli ölkəyə çevriləcəkdir" [8].

2011-ci il aprelin 6-da Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyas Azərbaycan Respublikasına rəsmi səfəri çərçivəsində Milli Məclisə gəlmişdir. Keçirilən görüşdə Prezident Karolos Papulyas Azərbaycana səfəri çərçivəsində Milli Məclislə tanışlıqdan, burada deputatlara yaradılmış şəraitdən, yeni texnologiyaların tətbiqindən məmnunluğunu bildirmişdir. "Ölkələrimiz arasında əlaqələrin hərtərəfli inkişafı üçün ortada siyasi iradə vardır, bu da münasibətlərimizin daha da dərinləşməsi və möhkəmlənməsi üçün geniş imkanlar yaradır. Yaxın vaxtlarda biz bunun bəhrəsini görəcəyik" [19, səh.2].

2013-cü il 24-27 noyabr tarixlərində Milli Məclisin Azərbaycan-Yunanıstan dostluq qrupunun parlamentlərarası dostluq qrupunun sədri Hadi Rəcəblinin rəhbərliyi ilə nümayəndə heyətinin Yunanıstana rəsmi səfəri olmuşdur. Nümayəndə heyətinin tərkibinə Azər Badamov, Hüseynbala Mirələmov, Nazim Fərəcov və İqbal Məmmədov olub. Bu səfər Yunanıstan parlamentinin Azərbaycanla dostluq qrupunun rəhbəri Dimitris Kiriazidisin dəvəti ilə həyata keçirilmişdir. Səfər zamanı Azərbaycan nümayəndə heyətinin üzvləri bu ölkənin qanunvericilik orqanının strukturu, fəaliyyəti, deputatların iş şəraiti ilə yaxından tanış olmuş, həmkarları ilə bir sıra görüşlər keçirmiş, parlamentlərarası əlaqələrin inkişafı və digər maraq doğuran məsələlər ətrafında müzakirələr aparmışlar [12].

2014-cü il iyunun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yunanıstana dövlət səfəri çərçivəsində Afinada Yunanıstan Respublikası parlamentinin sədri Vanqelis Meimarakis ilə görüşmüşdür. Vanqelis Meimarakis Azərbaycan və Yunanıstan parlamentləri arasında əlaqələrin inkişaf etdiyini söyləmiş, Azərbaycan Prezidentinin Yunanıstana dövlət səfərinin ölkələrimiz arasında bir çox sahələrdə əlaqələrin inkişafı baxımından əhəmiyyətli olduğunu qeyd etmişdir. Prezident İlham Əliyev bu səfərin parlamentlərarası əlaqələrin ölkələrimiz üçün çox önəmli olduğunu, bu əlaqələrin ümumi əməkdaşlığımızın inkişafında mühüm yer tutduğunu bildirmişdir. Azərbaycan-Yunanıstan parlamentlərarası əlaqələrin inkişafını qeyd edən dövlətimizin başçısı qanunverici





orqanlarda dostluq qruplarının fəaliyyətini bunun göstəricisi olduğunu vurğulamışdır. Prezident İlham Əliyev səfər çərçivəsində Yunanıstan Prezidenti və Baş naziri ilə səmərəli görüşlər keçirdiyini qeyd etmiş, Azərbaycan ilə Yunanıstan arasında qurulmuş dostluq əlaqələrinin çox uğurla inkişaf etdiyini və əməkdaşlığımızın gələcəkdə daha da genişlənməsi üçün böyük imkanların olduğunu vurğulamışdır. Sonda Vanqelis Meimarakis Yunanıstan parlamentinin qızıl medalını Prezident İlham Əliyevə təqdim etmişdir [4, səh.3].

2014-cü il iyunun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yunanıstana dövlət səfəri çərçivəsində bu ölkənin parlamentində əsas müxalifət olan Demokratik Solçular Birliyinin lideri Aleksis Tsipras ilə görüşmüşdür. Görüşdə Azərbaycan-Yunanıstan münasibətlərinin hazırki vəziyyəti və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır [1, səh.4]. Qeyd etmək lazımdır ki, "Sinaspizmos" partiyasının sədri və "SİRİZA" radikal solçular koalisiyasının lideri olan Aleksis Tsipras 2015-ci il 20 sentyabr tarixində Yunanıstanda keçirilmiş növbədənkənar parlament seçkilərində qalib gəlmişdir və hazırda Yunanıstanın Baş naziri vəzifəsini icra edir.

2016-cı il aprelin 26-da Azərbaycan-Yunanıstan parlamentlərarası işçi qrupunun üzvləri Afina şəhərinə səfər ediblər. Səfərdə Azərbaycan tərəfini Azərbaycan-Yunanıstan parlamentlərarası işçi qrupunun rəhbəri Hadi Rəcəbli və qrupun üzvü Hüseynbala Mirələmov təmsil edib. 4 gün ərzində keçən silsilə görüşlərdə son illər iki ölkə arasında iqtisadi, sosial, mədəni əməkdaşlığın xeyli intensivləşməsindən rəqəmlər və faktlarla söhbət açılıb. Hadi Rəcəbli bildirib ki, Yunanıstan parlamentində Azərbaycana xüsusi maraq və məhəbbət var. "Bu bir də onunla diqqəti cəlb edir ki, ölkənin 24 nəfərdən ibarət ən böyük dostluq qrupu məhz Azərbaycanla bağlıdır" [17].

Azərbaycan-Yunanıstan parlamentlərarası işçi qrupunun üzvlərinin Yunanıstana səfəri çərçivəsində Afina şəhərində Milli Məclisin deputatı, yazıçı-dramaturq Hüseynbala Mirələmovun həmmüəllifi olduğu "Görkəmli adamların həyatı" (JZL) seriyasından "Heydər Əliyev" kitabının yunan dilində nəşr olunmuş variantının təqdimat mərasimi keçirilmişdir. 2006-cı ildə işıq üzü görən kitab Azərbaycanın Yunanıstandakı səfirliyinin və Azərbaycan-Yunanıstan parlamentlərarası dostluq qrupunun

dəstəyi ilə Dimitris Patelis və Panayota Materi tərəfindən rus dilindən yunan dilinə tərcümə edilib və Afinanın "Enalios" Nəşriyyat Evi tərəfindən nəfis şəkildə və yüksək poliqrafik tərtibatla çap olunmuşdur. Təqdimat mərasimində çıxış edən Azərbaycanın Yunanıstadakı səfiri Rəhman Mustafayev bildirib: "Nəşrin yunan dilində tərcümə edilməsi xalqlarımız arasında dostluğun nümunəsi olmaqla yanaşı, həm də Azərbaycanın sülhsevər siyasətinin xarici ölkələrdə təbliğidir" [21]

**Mənbələr və ədəbiyyat**


1. Azərbaycan Prezidenti İlham Əliyev Yunanıstan parlamentində əsas müxalifət olan Demokratik Solçular Birliyinin lideri Aleksis Tsipras ilə görüşmüşdür // "Azərbaycan" qəz. 18 iyun 2014-cü il. № 127 (6693)
2. Azərbaycan Prezidenti İlham Əliyev Yunanıstan parlamentində əsas müxalifət partiyasının sədri ilə görüşmüşdür // "Azərbaycan" qəz. 17 fevral 2009-ci il. № 37 (5141)
3. Azərbaycan Prezidenti İlham Əliyev Yunanıstan parlamentinin sədri Dimitris Suifasla görüşmüşdür // "Azərbaycan" qəz. 18 fevral 2009-cu il. № 38 (5142)
4. Azərbaycan Prezidenti İlham Əliyev Yunanıstan parlamentinin sədri Vanqelis Meimarakis ilə görüşmüşdür // "Azərbaycan" qəz. 18 iyun 2014-cü il. № 127 (6693)
5. "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin qərarı // http://e-qanun.az/framework/32253
6. "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının yaradılması haqqında" Azərbaycan Respublikası Milli Məclisinin qərarı // http://e-qanun.az/framework/14761
7. Azərbaycan və Yunanıstan parlamentləri arasında əlaqələr yüksək səviyyədədir // "Azərbaycan" qəz. 22 iyun 2004-cü il. № 143 (3758)
8. Azərbaycan yaxın gələcəkdə daha da inkişaf edəcək və dünya üçün çox önəmli ölkəyəçevriləcəkdir//https://azertag.az/xeber/AZARBAYCAN_YAXIN_GALACAKDA_DAHA_DA_INKISAF_EDACAK_VA_DUNYA_UCHUN_CHOX_ONAMLI_OLKAYA_CHEVRILACAKDIR-440670
9. Azərbaycan-Yunanıstan parlamentlərarası dostluq qruplarının əlaqələri genişlənir//https://azertag.az/xeber/AZARBAYCAN_YUNANISTAN_PARLAMENTLARARASI_DOSTLUQ_QRUPLARININ_ALAQALARI_GENISLANIR-381475
10. Azərbaycan-Yunanıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupu // http://www.meclis.gov.az/?/az/workgroups/72
11. Azərbaycan-Yunanıstan parlamentlərarası əməkdaşlığı yeni mərhələyə qədəm qoyur // "Azərbaycan" qəz. 17 yanvar 2006-cı il. № 9 (4232)







12. Azərbaycanın və Yunanıstanın parlamentlərarası əlaqələri müzakirə olunacaq // https://az.trend.az/azerbaijan/politics/2214506.html
13. Azərbaycanla Yunanıstan arasında əlaqələr sürətlə inkişaf edir // "Azərbaycan" qəz. 25 yanvar 2007-ci il. № 15 (4532)
14. Διεθνείς Δραστηριότητες // https://www.hellenicparliament.gr/Diethneis-Drastiriotites/Diethnes-Perivallon/
15. Διεθνείς Δραστηριότητες: Διεθνές Περιβάλλον. Ομάδα Φιλίας // https://www.hellenicparliament.gr/en/Diethneis-Drastiriotites/Diethnes-Perivallon/Omades-Filias-All/?periodId=&countryId
16. Διεθνείς Κοινοβουλευτικές Συνελεύσεις // https://www.hellenicparliament.gr/Diethneis-Drastiriotites/Diethnes-Perivallon/DiethneiskoinovouleftikesSynelefseis/
17. Hadi Rəcəblinin Yunanıstana getməsinin səbəbi // http://modern.az/az/news/102008#gsc.tab=0
18. Milli Məclisdə görüş // "Azərbaycan" qəz. 8 may 2009-cu il. № 99 (5203)
19. Milli Məclisdə görüş // "Azərbaycan" qəz. 7 aprel 2011-ci il. № 72 (5762)
20. Milli Məclisin sədri Oqtay Əsədovun başçılığı ilə Azərbaycan Parlament nümayəndə heyəti Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin Afinada keçirilən tədbirlərində iştirak edir // https://azertag.az/xeber/MILLI_MACLISIN_SADRI_OQTAY_ASADOVUN_BASCHILIGI_ILA_AZARBAYCAN_PARLAMENT_NUMAYANDA_HEYATI_QARA_DANIZ_IQTISADI_AMAKDASLIQ_TASKILATI_PARLAMENT_MACLISININ_AFINADA_KECHIRILAN_TADBIRLARINDA_ISTIRAK_EDIR-410924
21. Mirələmovun kitabı yunan dilində // http://qafqazinfo.az/news/detail/mirelemovun-kitabi-yunan-dilinde-145593
22. Ομάδα Φιλίας Ελλάδας-Αζερμπαϊτζάν // https://www.hellenicparliament.gr/Diethneis-Drastiriotites/Diethnes-Perivallon/Omades-Filias-All/
23. Parlament nümayəndə heyətinin rəhbəri: "Yunanıstan Azərbaycanın Avropaya inteqrasiyasında körpü rolunu oynaya bilər" // https://az.trend.az/azerbaijan/politics/839905.html
24. Parlament nümayəndə heyəti Yunanıstanda // "Azərbaycan" qəz. 22 iyun 1997-ci il. № 128 (1649)
25. Все страны мира / [авт.-сост. Т. К. Варламова]. – М.: РИПОЛ классик, 2008. 608 с. : ил. – (Библиотека энциклопедических словарей).
26. Yunanıstan Azərbaycanla əlaqələrin inkişafında maraqlıdır // "Azərbaycan" qəz. 8 may 2009-cu il. № 99 (5203)
27. Yunanıstan parlamentinin sədri ilə görüş // "Azərbaycan" qəz. 20 fevral 2009-cu il. № 40 (5144)
28. Yunanıstanın parlament nümayəndə heyətinin Azərbaycana səfər proqramı açıqlanıb // https://az.trend.az/azerbaijan/politics/839637.html
29. Yunanıstanlı deputatların Azərbaycana səfəri başa çatıb // https://az.trend.az/azerbaijan/politics/840269.html

**Ilyas Huseynov**

## AZERBAIJAN-GREECE INTER-PARLIAMENTARY COOPERATION


### SUMMARY

This article is devoted to inter-parliamentary cooperation between Azerbaijan and Greece. The article analyzes the dynamics of the development of inter-parliamentary relations between the two countries, as well as provides information about the parliamentary diplomacy of Greece. This article pays special attention to the speeches of the presidents of Azerbaijan and Greece in the parliaments during mutual visits. The article provides information about the working groups operating in the parliaments of both countries. At the same time, the article stresses the importance of the work of inter-parliamentary working groups and the effectiveness of their mutual visits. Special attention is paid to the importance of reciprocal visits by inter-parliamentary working groups and parliamentarians for bilateral and international cooperation between Azerbaijan and Greece.


**Ильяс Гусейнов**

## АЗЕРБАЙДЖАНО-ГРЕЧЕСКОЕ МЕЖПАРЛАМЕНТСКОЕ СОТРУДНИЧЕСТВО


### РЕЗЮМЕ

Эта статья посвящена межпарламентскому сотрудничеству между Азербайджаном и Грецией. В статье анализируется динамика развития межпарламентских связей между двумя странами, а также приводится информация о парламентской дипломатии Греции. В статье уделяется особое внимание речам президентов Азербайджана и Греции в парламентах в рамках взаимных визитов. В статье приводятся сведения о рабочих группах, действующих в парламентах обеих стран. Подчеркивается важность работы межпарламентских рабочих групп и эффективность их взаимных визитов. Особое внимание уделяется важности взаимных визитов межпарламентских рабочих групп и парламентариев для двустороннего и международного сотрудничества между Азербайджаном и Грецией.